# Gömrük İşçiləri Günü

Tarix boyu mövcud olmuş bütün Azərbaycan dövlətlərində gömrük xidməti ilə məşğul olan xüsusi təsisatlar fəaliyyət göstərmişlər. Lakin gömrük sisteminin elmi-hüquqi əsaslarla təşkili ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti dövründə olmuşdur.

Azərbaycan ərazisini qeyri-qanuni ticarətdən və qaçaqmalçılıqdan qorumaq məqsədilə hökumətin 1918-ci il 12 iyul tarixli qərarı ilə Qazax qəzasının Salahlı və Şıxlı kəndlərində, Poylu dəmir yolu stansiyasında ilk gömrük postları yaradılmışdı. Azərbaycan hökuməti gömrük sisteminin fəaliyyətə başlamasını təmin edən sənədi 1918-ci il avqustun 10-da qəbul etmişdi.

Azərbaycan parlamentinin 1918-ci il 18 avqust tarixli qanununa əsasən, qaçaqmalçılıqla mübarizə, ölkənin ərazisini qeyri-qanuni ticarətdən qorumaq məqsədilə Azərbaycanın sərhədlərində 99 gömrük postu yaradılmışdı və burada 992 gömrük işçisi keşik çəkirdi. Aprel işğalı digər sahələrdə olduğu kimi, gömrük sistemində də işlərin başa çatdırılmasına imkan vermədi.

SSRİ dövründə Azərbaycanda gömrük sistemi mövcud olmamışdır. Bu iş yalnız ittifaq orqanları tərəfindən həyata keçirilirdi. Azərbaycanda gömrük sisteminin təşkili tarixi çox qədimdir.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən az sonra - 1992-ci il yanvarın 29-da müstəqil gömrük sisteminin əsası qoyuldu. Gömrük dövlət xəzinəsini gəlirlə təmin edən ən mühüm dövlət atributlarından biridir. Gömrük sistemi həm də ölkəyə qeyri-qanuni yolla müxtəlif malların gətirilməsinin, habelə ölkənin ən mühüm strateji sərvətlərinin aparılmasının qarşısını alır. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin sərəncamı ilə 29 yanvar gömrük işçilərinin peşə bayramı günü elan olunmuşdur.

# 2 fevral - Gənclər Günüdür!

Ulu öndərin hakimiyyətə ikinci dəfə qayıdışından sonra Azərbaycanda dövlət gənclər siyasətinin əsası qoyuldu.1994-cü ildə dövlət gənclər siyasətini icra edən Gənclər və İdman Nazirliyi yaradıldı. Ulu öndərin prezidentliyi dövründə ölkə gəncləri onun diqqət və qayğısını daim öz üzərlərində hiss etmişlər. 1996-cı il 2 fevral tarixində məhz ulu öndər Heydər Əliyevin dəstəyi ilə gənclərin 1-ci forumu keçirildi. 1997-ci ildən isə Prezident sərəncamı ilə 2 fevral Azərbaycanda Gənclər Günü kimi qeyd olunmağa başladı. Əsası ulu öndər tərəfindən qoyulan dövlət gənclər siyasətinin nəticəsidir ki, bu gün ölkəmizdə idarəetmə bacarığı ilə seçilən intellektual, dünyagörüşlü yeni nəsil yetişmişdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafına təkan vermiş, onların özlərini cəmiyyətdə təsdiq etməsində mühüm rol oynamışdır. Prezident 2005-ci il avqustun 30-da "Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında" sərəncam imzaladı. Prezident İlham Əliyevin bu sahəyə olan diqqəti özünü ayrıca bir ilin (2007-ci il) "Gənclər ili" elan edilməsində də göstərdi. 2007-ci ildə prezident İlham Əliyev "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"-nın təsdiq edilməsi barədə sərəncam imzaladı. 2011-ci ilin 6 aprel tarixində prezident İlham Əliyev "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı haqqında sərəncam imzaladı. Proqramın əsas məqsədi ölkəmizdə gənclər siyasətini daha da inkişaf etdirmək, gənclərin menecment sahəsində fəal iştirakına şərait yaratmaq, gənc mütəxəssislərin işlə təminatı və digər sosial-iqtisadi problemlərinin həllini təmin etməkdir. Gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında fəal iştirakını bir qədər də stimullaşdırmaq məqsədi ilə Prezident İlham Əliyev 19 dekabr 2011-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun yaradılması barədə sərəncam verdi. Prezident İlham Əliyevin gənclərə dəstək yönündə verdiyi mühüm və əlamətdar qərarlardan biri də ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi oldu.

Bu gün qürurla deyə bilərik ki, ölkə gəncləri Prezident Cənab İlham Əliyevin uğurla apardığı daxili və xarici kursu alqışlayır, bu siyasətin icrasında daim onun yanındadır. II Vətən Müharibəsində qətiyyətli Ordumuzun, bu ordunun Ali Baş Komandanı İlham Əliyevin və ölkəmizin gənclərinin qazandığı Zəfər, Qələbə məhz bu birliyin bariz nümunəsidir.

**“Qəbələ”**

# Qan yaddaşımız

31 il əvvəl xalqımız erməni rus birliklərinin növbəti terroru sözün əsl mənasında soyqırım cinayəti ilə üzüzə qaldı. 1990-cı ildən üzü bu yana 31 illik zaman kəsiyində 20 yanvar faciəsi hər il qeyd olunub, şəhidlərimiz yad edilib. İllərdir qəlbimizdə dərin bir acı ilə yad edirdik azadlıq carçılarını, sanki onların qarşısında boynubükük, günahkar kimi...Çünki onlar-Sovetlər kimi nəhəng bir imperiyaya meydan oxuma cəsarətində olan qəhrəmanlar vətəni bütöv və azad görmək istəyirdilər. Lakin ulu, əzəmətli qartalın, odlar yurdunun dərin bir yarası vardı- Qarabağ yarası. Hər il şəhidlər xiyabanında şəhidlərimizin ruhu qarşısında baş əyər, və söz verərdik - yaralı qartalın qanadları sağalacaq, yaralarına məlhəm qoyacağıq. Bütövləşəcək Azərbaycan! Düz 31 ildən sonra böyük fərəh hissi ilə deyirəm, ruhunuz şad olsun, canını canımız üçün fəda edənlər! Ruhunuz şad olsun azadlıq fədailəri! Qarabağ azaddır. Vətənimiz bütövdür! Rahat yatın məzarınızda. Arzuladığınız azad, bütöv, çiçəklənən bir Azərbaycan var artıq. Üçrəngli bayrağın kölgəsində məğrur və qürurlu ordumuz qisasınızı və bütün şəhid bacı və qardaşlarımızın qisasını aldı. 1990-cı ildə qəlbimizə, köksümüzə sağalmayacaq yara vuranlar bu gün 31 ildən sonra gücünü, qüdrətini gördü Azərbaycanın. Qanıyla tarix yazan şəhidlərimiz, sizə Allahdan rəhmət diləyirəm!

**Elza KƏRİMOVA,**
**şəhər 3 saylı məktəbin müəllimi.**

# Maraqlı xəbərlər

2021-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi tamam olur. Dövlət başçısı qüdrətli söz və fikir ustadının insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyətini nəzərə alaraq bu ili ölkəmizdə “Nizami Gəncəvi” ili elan etmişdir. O, Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan etmişdir. Həmçinin İSESKO tərəfindən Şuşa İslam Mədəniyyətinin paytaxtı, Türksoy tərəfindən isə Türk Dünyasının Mədəni paytaxtı elan olunmuşdur.

Şuşada “Xarı bülbül” müsiqi festivalının və “Vaqif poeziya günləri”nin də keçiriləcəyi nəzərdə tutulmuşdur.

# Müqəddəs ziyarət

İnsanların yaralarına “məlhəm”, dərdlərinə ortaq olmaq xalqımıza xas olan xüsusiyyətdir. II Vətən Müharibəsində yüzlərlə igid oğullarımız Vətən uğrunda, torpaqlarımızı yadellilərdən təmizləmək savaşında canlarını qurban vermişlər. Dizaxlı kəndinin də igid oğulları arasında şəhidlər və qazilər vardır. Qəbələ və Oğuz rayonunun bir qrup həvəskar yazarları bu günlərdə Yeni Dizaxlı kəndində şəhid Xeyirbəy Səfərçinovun ailəsi ilə görüşmüş, onun xatirə ev-muzeyində olmuş, şəhidə həsr etdikləri şeirlərini oxuyaraq, şəhidin yaxınlarının xatirələrini dinləmişlər.

Sonra şəhidin qəbri ziyarət edilmişdir.

**Emin BARATOĞLU,**
**Bum qəsəbəsi.**


QƏBƏLƏ
Qəbələ rayonunun İctimai-siyasi qəzeti

qəzetinə

**2021-ci ilin birinci yarısı üçün abunə yazılışı davam edir.**

**Yarımillik abunə qiyməti 15 manatdır.**

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56


# O bir əfsanə idi




Pedoqoq-şair Qərib Hüseynovun bu günlərdə Azərbaycanın Milli Qəhramanı Polad Həşimova həsr olunmuş “O bir əfsanə idi” kitabı nəşr olunmuşdur.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş bu kitabda Qarabağ münaqişəsinə görə Azərbaycanla Ermənistan arasında gedən müharibədə Tovuz döyüşləri zamanı qəhrəmancasına həlak olmuş general-mayor Polad Həşimovun keçdiyi döyüş yolu poetik bir dillə tərənnüm edilmişdir.

Bu əsər müəllifin təxəyyülünün məhsuludur və özündə tarixi sənəd mahiyyəti daşımır. Əsərdə qabardılan vətəndaşlıq mövqeyi gənclərin, äləxsus, məktəblilərin Vətənə məhəbbət hislərinin aşılanmasında çox önəmlidir.

Bu kitabda istifadə olunan bəzi şəkil və məlumatlar tərtibçisi Şəmil Sadiq olan “General Polad Həşimov xatirələrdə” kitabından, digər məlumatlar isə müxtəlif internet saytlarından götürülmüşdür.

**“Qəbələ”**


Redaktor
Azad Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində Kərimli Etibar Ələsgər oğlu Unibank CB mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.

*Tiraj 1200*